## Vergilərin mobil telefon vasitəsilə ödənilməsinə imkan yaradılacaq

Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəisi Natiq Şirinov «Nağdsız ödənişlər səmərəli vergi uçotunun aparılmasının vacib amili kimi» mövzusunda çıxışında demişdir:

- Dövlət Neft Fondundan transfertlər nəzərə alınmasa, bu il dövlət büdcəsinin gəlirlərinin təxminən 82%-i məhz Vergilər Nazirliyinin xətti ilə təmin olunmalıdır. Belə bir xüsusi çəki fiskal tədbirləri həyata keçirən nazirliyin nağdsız ödənişlərin həyata keçirilməsində nə qədər maraqlı olduğunu təsdiqləyir. Əslində, Vergilər Nazirliyi nağdsız ödənişlərin tətbiqinə 2008-ci ilin yanvar ayının 1-dən ƏDV ödəyiciləri üçün depozit hesabının tətbiqi ilə başlamışdır. Həmin tarixdən vergi ödəyiciləri ƏDV depozit hesabı vasitəsilə dövlət büdcəsinə istənilən tədiyyə növü üzrə borclarını, gömrük orqanları qarşısında idxalla bağlı ƏDV-nin və digər vergi ödəyicilərinin subuçot hesablarına borclarının ödənilməsini təmin edə bilirlər. Bu sistem həm vergi tarixçəsinin və xronologiyasının saxlanılmasına, həm də Vergilər Nazirliyinə və vergi ödəyicilərinə müvafiq uçotun təşkilinə imkan verir. Hazırda ƏDV depozit hesabı vasitəsilə daxilolmalar ümumi vergi daxilolmalarının üçdə bir hissəsini təşkil edir.

Vergilər Nazirliyi digər mühüm istiqamət kimi plastik kartlar vasitəsilə nağdsız ödənişlərin aparılması üçün Mərkəzi Bankla birlikdə müvafiq tədbirlər həyata keçirir. Belə ki, 2012-ci ilin aprel ayından vergi və rüsumların plastik kartlar vasitəsilə həyata keçirilməsi reallaşdırılıb. Hazırda istər Vergilər Nazirliyinin rəsmi internet saytı, istərsə də hökumət ödənişləri portalı olan lwww.apus.az» saytı vasitəsilə ödənişləri həyata keçirmək mümkündür. Qısa müddətdə 100 mindən çox transaksiya həyata keçirilmiş, ümumi məbləğ 70 milyon manatı ötmüşdür. Lakin qeyd etmək lazımdır ki, hələlik ölkəmizdə nağdsız ödənişlərin həcmi arzu olunan səviyyədə deyildir. Belə ki, bəzi inkişaf etmiş ölkələrdə nağdsız ödənişin xüsusi çəkisi ümumi ödənişlərdə kifayət qədər yüksək olduğu halda, Azərbaycanda bu rəqəm o qədər böyük deyildir. Fikrimizcə, ölkəmizdə nağdsız ödənişlərin həcminin az olması bir neçə əsas amillərlə şərtləndirilə bilər. Əsas amillərdən biri kimi nağdsız ödənişlərin üstünlükləri barədə vətəndaş cəmiyyəti üzvləri və vergi ödəyiciləri arasında kifayət qədər geniş məlumatlandırma və təbliğat işləri aparılmasa da alıcılar tərəfindən alqı-satqı əməliyyatları zamanı kartlardan istifadə ilə bağlı stimullaşdırıcı tədbirlərin hələlik az olması və digər bu kimi hallar qeyd edilməlidir.

Burada qeyd olunduğu kimi, 2012-ci il oktyabrın 4-də Nazirlər Kabineti müvafiq qərarı ilə «Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları»nı təsdiq etmişdir. Bununla əlaqədar Vergilər Nazirliyi tərəfindən Tədbirlər Planı hazırlanaraq təsdiq olunmuş, Qaydaların tələblərinə uyğun proqram təminatının hazırlanması ilə bağlı tədbirlər həyata keçirilmişdir. Həmin qərara əsasən, 2015-ci ilə qədər respublikanın bütün kənd və qəsəbələrində POS-terminalların tətbiqinin başa çatdırılması nəzərdə tutulur. Qərara görə, Bakı, Gəncə və Sumqayıt şəhərlərində bu proses 2012-ci ildə, Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad rayon və şəhərlərində (kənd və qəsəbələr istisna olmaqla) 2013-cü ildə, digər rayon mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) 2014-cü ildə başa çatdırılmalıdır. Ölkənin bütün kənd və qəsəbələrində POS-terminallar 2015-ci ilin sonunadək tətbiq olunmalıdır.

Məlum qərar ilə POS-terminalların quraşdırılması ilə bağlı beş meyar müəyyən olunmuşdur. 2013-cü ildə aidiyyəti dövlət qurumları ödənişlərin POS-terminallarla qəbulu məqsədilə müvafiq tədbirlər həyata keçirməlidirlər. Hazırda POS-terminallar quraşdırılacaq obyektlərdə vergi ödəyicilərinə bildirişlərin xüsusi proqram tərəfindən avtomatik göndərilməsi üzərində işlər davam etdirilir və bu proses yaxın günlərdə başa çatdırılacaq.

Məlumdur ki, hazırda dünya ölkələrinin bir çoxunda nağdsız ödənişlərin mobil telefon vasitəsilə həyata keçirilməsi geniş vüsət almışdır. Dünya üzrə elektron ödənişlərdə mobil telefon vasitəsilə ödənişlər 28% təşkil edir. 2013-cü ildə bu göstəricinin 34% təşkil edəcəyi gözlənilir. Vergilər Nazirliyi vergilərin mobil telefon vasitəsilə ödənilməsinə şərait yaratmaq üçün lazımi tədbirlər həyata keçirir. İnformasiya-kommunikasiya texnologiyaları inkişaf etdikcə nazirliyin bu sahədəki fəaliyyəti də təkmilləşəcək və ən müasir standartlara cavab verəcəkdir.